**Щцсейнбала Миряламов**

# YUXU

*Xalq yazıçısı Anara*

Ziya müəllim xidməti ezamiyyətdən qayıdırdı. Amma, yolun uzun olmasına baxmayaraq, nədənsə, təyyarə ilə uçmaq istəmirdi. Hiss edirdi ki, gərgin işdən sonra bərk yorulub. Odur ki, səyahət üçün ən maraqlı yolu seçdi. Bir-iki saat avtobusla yol getdikdən sonra, qonşu ölkənin liman şəhərinə gəlib çıxdı. Bilet alıb gəmiyə mindi. İlk günü, demək olar ki, öz kayutunda keçirdi. Səfərinin necə keçdiyini xəyalında götür-qoy etdi. Hər şey nəzərdə tutduğu kimi olmuşdu...

İstehsalatı yaxşı təşkil etdiyinə görə keçən il onu beynəlxalq müsabiqənin qalibi seçmişdilər. Qızıl medalla təltif olunmuşdu. İndi, budur, Paris uzaqda, çox uzaqda qalsa da, par-par parıldayan qızıl medal əlində idi! Təltif sənədlərinə göz gəzdirdi. Arada istədi medalı döşünə taxıb, aynada baxsın... Özünə gülməyi tutdu. Qaytarıb yerinə - qutuya qoydu.

Olsa-olsa, bir günlük yolu qalırdı. Amma bu birgünlük yol Ziya müəllim üçün bir illik yol kimi görünürdü. O, istehsalat adamı idi, həm də, nə qədər istehsalat adamı idisə, elə bir o qədər də, hələ bəlkə ondan da çox ailə adamı idi.

Orta məktəbi arvadı Güləzərlə bir yerdə oxumuşdular. Bir-birlərinə isti münasibətləri də elə həmin vaxtlardan yaranmışdı. Gələcək taleləri haqqında bir-birlərinə heç nə deməsələr də, Güləzər gələn elçiləri geri qaytarmış, daxili bir inamla Ziya müəllimin yolunu gözləmişdi. Ziya müəllim də Güləzərdən heç bir vəd almasa da, onun gözlərinin dərinliyində yatan sədaqəti apaydın görmüşdü. Ziya müəllim ailə qurmaqda bir az gecikmişdi. Tay-tuşları bir-bir evlənib sıradan çıxsalar da, o tələsməmişdi. Nəhayət, aspiranturanı qurtarıb, istehsalata gələndən, özü işləyib məvacib alandan sonra anasının təkidli tələblərinə razılıq vermiş və ona “ özün kimi istəyirsən seç ” demişdi. Anası da Güləzərdən başqa birisinin adını çəkməmişdi. Əslində, Ziya müəllim yaxşı bilirdi ki, anası kimi seçəcək. Güləzərlə Ziya müəllimin evliliyi həyatlarında qeyri-adi heç nə yaratmasa da, onların ürəklərində olan məlum boşluğu silmişdi. Onlar bir-birlərini heç nədə ittiham etməsələr də, hərdən ötən aylara-illərə qayıdır, həmin günlərin həsrətini şirin xatirələrlə yad edirdilər.

Nəhayət, Ziya müəllimin ilk oğlu dünyaya gəldi. Ona gəncliyində itirdiyi atasının adını qoydu – Fariz. Sonra ikinci oğlu oldu. Ona da Ziya müəllim müharibədən qayıtmayan əmisinin adını verdi – Fəhmin. Allah üçün deyək ki, bu uşaqlar doğulmamışdan onların adları doğulurdu. Onu da deyək ki, ərlə-arvad arasında ad üstündə heç bir söz-söhbət olmurdu. Sonra bir müddət uşaqları olmadı. Daha sonra Ziya müəllimin anası Laləzər xala rəhmətə getdi...

İki il sonra Ziya müəllimin üçüncü uşağı – qızı doğuldu. Güləzərin təklifi ilə uşağın adını Laləzər qoydular. Kəndin ağzı göyçəkləri deyirdilər ki, uşağın adını anasının adına yaraşdırıb qoyublar. Yəni ki, Güləzər, Laləzər... Ziya müəllim isə yaxşı bilirdi ki, Güləzər bu adı qaynanasının xatirəsinə ehtiram kimi qoyub. Ziya müəllim yaxşı bilirdi ki, o Güləzəri necə sevibsə, anası da onu elə həmin hisslə sevib, əzizləyib.

Ziya müəllim qızı Laləzəri ailə dünyasının laləsi hesab edirdi. İndi o vaxtdan xeyli keçib. Laləzər ali təhsilli sinif müəlliməsidir. Böyük oğlu Fariz hakimdir, ikinci oğlu Fəhmin isə həkimdir.

Ziya müəllim bilirdi ki, Güləzər də, oğlanları da, qızı da onun yolunu gözləyirlər. Ziya müəllim bilirdi ki, o ailəsi üçün necə darıxıbsa, arvadı, uşaqları da onun üçün elə darıxıblar.

Yüngül yol çantasına alıb yığdığı qəlyanaltıları stola düzdü. Nahar elədi. Sonra uzanıb dincəldi. Gəminin aramsız, zəif ləngəri uşaq beşiyini xatırladırdı.

Yarıyuxulu-yarıoyaq vəziyyətində fikir ümmanına qərq oldu. Çoxdan yazmaq istədiyi qeydləri xəyalına gətirdi. Ha istədi qalxıb qələm və kağız çıxarsın, gücü çatmadı. Öz-özünə düşündü: yazmaq əzabı lap betər işdi.

Ziya müəllim bu əzabın götür-qoyundaydı. Hərdən dostları ona deyirdilər: istehsalatla yazı-pozu bir yerə sığmır.Bir də ki, yazı-pozu keçmişdə qaldı. İndi kimdi kitab oxuyan? Əslində də, müəssisə rəhbəri istehsalata üstünlük verir. Görürsən ki, kənardan da kimsə ona canıyananliq edir:

- Ay qardaş, at o qələmi, vallah, axır ki, başına bəla olacaq bir gün. Sən elə çoxdanın söz eşidəni deyilsən.

Başqa birisi onun sözünə qüvvət verir:

- Heyif deyil istehsalat? Tapşırığını verirsən, hər kəs də öz işini görür. Hər sahənin də öz cavabdehi var. Ara sakitləşən kimi katibə çayını dəmləyir. Telefonlara cavab verir. Xoşun gəlməyən adama "Yanında iclasdır. Bir azdan zəng eləyin", qırsaqqız olana da "əlaqə saxlayın" deyir. Bir sözlə, xeyirsiz zəngin biri də

sənə çatmır. Zalım qızı, elə bil, bu sahə üzrə elmi iş müdafiə edib. Kimə nə demək lazımdır, hamısını yaxşı bilir. Allah yeni sistemi çıxaranın atasına rəhmət eləsin. Vəzifə pillələri də ki, öz yerində. Dəyişdikcə, yuxarı qalxdıqca, ruhun təzələnir.

Ziya müəllim o adamları necə başa salaydı ki, yazmaq əzabının şirinliyini dünyanın heç bir neməti ilə müqayisə etmək olmaz. Hərdən ağız-ağıza verən dostlarının dəlilləri ilə razılaşmaq istəsə də, bu fikri tez başından qovurdu və öz-özünə deyirdi: Yox, qəlbindən keçənləri kağıza köçürürsən, elə bil ki, yüngülləşirsən, çiyinlərindən yük götürülür. Yaxşı deyiblər ki, yazıya pozu yoxdu. Bir də görürsən ki, bir qəbir daşına köçürülmüş üç-beş kəlmə bəzən bir xalqın tarixini öyrənmək üçün açar olur. Elə isə, yazmalı olduqlarım niyə beynimdə çürüməli, məhv olmalıdır? İttihamqarışıq düşüncələr Ziya müəllimin ixtiyarını əlindən almışdı. Heç yuxuya da necə getdiyini bilmədi...

***

Ona elə gəlirdi ki, uzaqda – suyun üzündə bir pilləkən var. Adamlar bu pilləkənlə üzüyuxarı qalxırlar. Lap yuxarıdakı adam pilləkanın başına çatanda, yerini aşağıdakı tuturdu. Ancaq bu vaxt yuxarıdakı yox olurdu. Aşağıdakılar üçün bunun fərqi yox idi ki, o yuxarıdakı hara getdi. Havaya uçdu, külək oldu, yağış olub yağdı, buxarlanıb buluda qarışdı...

Ziya müəllim özü, deyəsən, suyun üstündə olanlardan birinin arxasında idi... Yox, bu ki, gəmi-restorandır. Hə də, gəmi-restoran... Bir az irəli getsə, bəyəndiyi bir masanın arxasında əyləşə bilər. Nə böyük restorandır? Deyəsən, tanış adamlar da var. Üzünü yana çevirib keçmək istədi. Zaur[1] əlini qaldırıb, onu dəvət etdi, özü də ürəklə, ağayana. Yanındakılar kimdir? Onları da tanıdı...

Zaurla "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndən düşəndə tanış olub. Bu tanışlıq sonralar yaxınlığa çevrilib. Qədiri[2] bir yay "Kür qırağının meşələri"nə gəzməyə gedəndə görüb. Elbəyə[3] "Çimərlikdə" rast gəlib. Çoxdandı görüşmürdülər. Qədir nə yaman qocalıb? Zaur ondan – yəni Ziya müəllimdən 5-10 yaş böyük olar. Elbəy onların hər üçündən cavandır. Ziya müəllim süfrəyə baxdı. Çaxır butulkaları... pendir-çörək, yüngül çərəzlər. Hiss olunurdu ki, dostlar imkanlarına və şakərlərinə uyğun vaxt öldürürlər.

Zaur Ziya müəllimin əyləşməsi üçün stul çəkdi.

---

[1] Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanının qəhrəmanı.
[2] Ə.Əylislinin "Kür qırağının meşələri" romanının qəhrəmanı.
[3] Bu hekayənin müəllifinin "Çimərlikdə" hekayəsinin qəhrəmanı.

Ziya müəllim düşündü ki, xətir-hörmət olmasaydı da, Zaur alicənablığına binaən hökmən onu dəvət edəcəkdi. Qədir qocalmışdı. Ancaq qocalsa da, ötkəmliyini qoruyub saxlamışdı. Zaur zahirən daha müdrik görünürdü. Hiss olunurdu ki, cavanlığı coxdan keçmiş olsa da, təravəti qalıb. Onun həyatdan doyduğunu sezmək üçün psixoloq-filan olmaq lazım deyildi.

– Yaxşı, mən xidməti ezamiyyətdən qayıdıram. Bəs bunlar? Deyəsən, bunlar qürbətdən gəlirlər, - Ziya müəllim düşündü, - bu nostalgiya da qəribə xəstəlikdir. Buna Vətən həsrəti xəstəliyi də deyirlər. Bu xəstəliyin əlamətlərini diqqətli adamlar tez sezirlər, müsahiblərinin üz-gözündən, baxışlarından...

Dostlar gəmiyə müxtəlif vaxtlarda, ayrı-ayrı limanlarda minmişdilər. Söhbətlərindən, bir-birinə münasibətlərindən hiss olunurdu ki, araları kifayət qədər açıqdır. Həm də bir-birinə tikanlı, eyhamlı söz deməkdən də çəkinmirdilər.

İlahi, insan da mürəkkəb məxluqdur! İllərlə Vətəndən kənarda olasan, Vətənə dönməyin həsrətini çəkəsən, doğma dilində danışan bir kimsənin səsini eşitməyin həsrətində olasan, həm də elə bu qürbətdən Vətənə dönəndə, “gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı” sözünün yovşan ətirli sehrinin çəkib gətirdiyi yolda görüşdüyün köhnə simsarlarla (bəlkə görüşəndə qucaqlaşıb öpüşüblər də, bəlkə kövrəliblər də) indi neçə gün bir yerdə yol gələ-gələ köhnə palan içi tökməyə başlayasan.

Qədir də, cavan Elbəy də Zaurun Ziya müəllimə hörmətini öz gözlərinin ifadələri ilə təqdir etdilər.

Ziya müəllimin süfrədə özünə yer eləməsindən sonra söhbətləri bir qədər səngisə də, yenidən ara qızışdı. Qədir özünəməxsus sərtliklə odun üstünə yağ tökdü: “Sən də dəyişmisən, sən də, sən də... ” Əvvəl Elbəyə, sonra Zaura, özü də, düz gözlərinin içinə baxdı. Zaurun ikrahla yuxarıdan aşağı onu süzməyi beyninin qurdunu tərpətdi – bir də təkrar etdi: “Hamınız dəyişmisiniz, ancaq elə köhnə qurumsaqlarsınız, ilbizlər, soxulcanlar, kərtənkələlər...”

Onlara baxanda, Elbəy çox cavan idi. Həm də Elbəyin söhbətə reaksiyası ləng, bir az da saymazyana olduğundan, belə qənaətə gəlmək olardı ki, düşünür: ey dadi-bidad, bunlar qocalıb xərifləyirlər.

– Qədir kişi, sənin bizi ittiham eləməyə haqqın varmı? – Zaur ədəbsiz sözlərlə cavab verməyi özünə sığışdırmadı. – Xəyalında isə dolandırdı: insan nə qədər həyasız olmalıdır ki, özünün keçdiyi yola baxmadan, yaşadığı həyatı saf-çürük etmədən, başqasını ittiham – özü də bu cür kəskinliklə ittiham etsin.

Qədir:

– Niyə yoxdur, ə?! Sizin kimi günümü bazlıqda, ad günlərində, yeyib-içməkdə keçirməmişəm ki?!

Zaur:

– Sən düz adam idin yerində-yurdunda yaşayaydın. Kəndinlə, el-obanla dil tapaydın. Camaata qurumsaq adı verəndə, hərənin vedrəsinə bir təpik vuranda bilmirdin ki, camaat səni görəndə üzünü yana çevirəcək?

Qədir:

– Hazır heç nəyin sahibi deyildim. Hardaydı Elbəy kimi atamın yığdığı pulları dəstə-dəstə qarmalayıb cibimə yığam. Nə sənin kimi kooperativ evim vardı, nə də atamın aldığı göy "Volqa". Camaatın da ki, Allahı yoxdur: kasıbı adam hesab eləmir...

Elbəy:

– Qədir əmi, adam bir az allahlı olar. Doğrudur, gəncliyimizdə atamızın bizə köməyi dəyib. Axı, sonralar biz özümüz öz gücümüzə dolanışıq yolu tapmışıq...

Elbəyin bu sözləri Ziya müəllimin iliyinə işlədi: fərli oğul neylər dədə malını? Fərli özü də qazana bilər, fərsiz qazana bilmədiyi kimi, olanı da saxlaya bilməyəcək. Ataların məşhurluğu, varı, dövləti oğulların bir müddət əlindən tuta bilər. Ancaq cəmiyyətdə hər kəs öz yerini özü qorumalıdır.

Qədir:

– Mən sizin kimi dondan-dona düşə bilmirdim. Siz buqələmun kimi fəsilə uyğun rənginizi dəyişirdiniz. Bəlkə, indi də eləsiniz.

Ziya müəllim, istər-istəməz, söhbətə müdaxilə etmək üçün dedi:

– Qədir, ay Qədir, bil ki, Zaur da, Elbəy də ləyaqətli adamlardır. Söhbət o deyil ki, hökmən təhqir üstə qurulsun.

Amma sözlərinin elə bir təsiri olmadı...

Gəmi asta-asta yırğalanırdı. Heç kimin ağlına gəlmirdi ki, bu gəmi bu gecə vaxtı sonsuz sularda necə üzür. İndi bu gəminin kapitanı hardadır? Sürət ölçən, istiqamət göstərən cihazların qarşısında əyləşənlər gecənin bu aləmində nə işlə məşğuldular? Deyirlər ki, "Titanik"dən bircə nəfər sağ çıxıb. Yüz il əvvəl okeanda

nələr baş verdiyini bir vaxt danışmaq üçün tanrı o bir nəfəri şahid saxlayıb. Allahın işini nə bilmək olar? Min dəfə hesablanmış bir variant görürsən, alınmır. Bəlkə qəzalar elə belə hallarda baş verir?

Ziya müəllim gözaltı stollara baxdı. Ona elə gəldi ki, bu adamların hamısı bir-biri ilə haqq-hesab çəkir. Hamı nəyi isə bölməyin hayındadır. Hərçənd ki, içkinin təsirindən xumarlananlar, gənc qızlarla rəqs edənlər, özünü taleyin ümidinə buraxanlar da az deyildi. Xülasə...

Zaurun rəngi elektrik lampasının işığında ağappaq görünürdü. O, gəncliyində gözəl və biçimli oğlan idi. Elə Elbəy də. Amma Zaurun indiki ağlığı onun daxili həyəcanlarından xəbər verirdi.

Zaur:

– Qədir, sən bil ki, bu torpaqda yaşayan insanlara acıq eləməklə bu torpağın özünə arxa çevirdin. Bu məmləkətin başına gələnlər sənin kimi dönüklərin əməllərinin nəticəsidir.

Qədir:

– Bayaq dedim ki, mən dönük çıxmadım. Tüpürdüm hər şeyə.

Zaur:

– Nahaq yerə. Hər şeyə tüpürməyə haqqın yoxdur. Səltənəti bədbəxt elədin, damın altında qoydun. Sümüyümüzü hara caladın? Mən heç bir xalqa qarşı düşmən münasibətin tərəfdarı deyiləm. Amma bil ki, bu torpağın üstünə tank-topla gələnlərin arasında, bəlkə, sənin də nəvələrin – Marinanın törəmələri vardı. Sənin Marinadan olan qızlarının – Leylanın, Səltənətin ancaq adları sənin idi. Bəlkə adlarını qoyduğun əzizlərinin dilində onlarla üç-beş kəlmə də kəsə bilməmisən.

Qədir bu sözlərdən sarsıldı. Xəyalı cavanlığına qayıtdı. Qaynatasının kasıb koması, Səltənəti qaynatasının xeyir-duası ilə təzədən öz evinə gətirməsi yadına düşdü. Qapıdan çıxanda kişinin sözləri qulaqlarında otuz ildən sonra təzədən cingildədi: "Sən də, ay oğul, az iç o zəhrimarı! Az iç, ay oğul, az iç, az iç, az iç..."

Qədir dillənmək istədi. Səsi boğuldu. Boşalmış şüşələri indicə görürmüş kimi nifrətlə süzdü... danışa bilməyib susdu...

Zaur da, Elbəy də, az qala, peşmanlıq hissi keçirəcəkdi. Əgər Qədir təzədən qəzəblə hücuma keçməsəydi.

– Zaur, sən qatilsən, Təhminənin ölümündə təqsirkarsan...

Zaur:

– Bəs sən ana bətnində ölən körpə uşağının, doğmaca övladının qatili deyilsən, o uşaq sənin çürük fəlsəfənin qurbanı olmadımı? Sənin düşüncən erkən orta əsrlər Şərqinin cahilliyinin təfəkkürü deyildimi: "Qız olsa, zaxota atacağam, öldürəcəyəm, bələyindəcə boğacağam". Qədir, heç kimin səninlə düşmənçiliyi yox idi. Bu imici sən özün yaratmışdın.

...Gəmi-restoranda əhval dəyişmişdi... İndi ehtiraslar bir qədər soyumaqda, səngəməkdə, restorandakıların üzünə hüznlü bir kədər əhvalı çökməkdə idi. Çalınan musiqi də tamam başqa idi. Rəqs edən cavanların bir çoxu çəkilib kayutalara getmişdilər. Qalanlar və təzə gələnlər nisbətən yaşlı adamlar idi. Milli üçlük – tarzən, kamançaçalan və əlində dəf tutmuş xanəndə tələsmədən, karvan yolunun üstündə oturubmuş kimi, "Rast"ı ifa edirdilər. Xanəndə qürbətdə ömür keçirib qayıdan adamların ürək tellərini ehtizaza gətirmişdi.

*Cavanlıq köç edər, qoyma gedər əldən zaman keçsin,*

*İnanma bir daha burdan qəribi karivan keçsin.*

Ziya müəllim müsahiblərinin başı üstündən onların keçmişinə baxırdı: mənasız bir ömür sürmüş bu adamların bugünkü qanlı mübarizəsi və bir-birini ittiham etməsi elə mənasız ömür yaşamaqlarını başa düşməkləri ilə bağlıdır. Bircə onu başa düşməkləri ilə bağldır. Bircə onu başa düşmürlər ki, hər kəs özü yazdığı kimi yaşayıb. Yəni biri o birisi üçün günahkar deyil.

Xanəndə, deyəsən, səsini bir az da qaldıdı və bu anda Ziya müəllimin düşüncələri qırıldı.

*İtən gənclik soragilə qocalar yerdə süründükcə,*

*Büküldü bel, bu mümkünmü ömür daim cavan keçsin.*

Ziya müəllimi dəhşətə gətirən o idi ki, bu adamlar bir-birinə elə qanlı-qanlı baxırdılar ki, elə bil, bir daha barışmayacaqdılar.

Xanəndənin səsi uzaqlaşan kimi oldu. Elbəy xəyallara dalmışdı. Elə bil ki, yayda, çimərlikdə təzəcə tanış olduğu bir qızın belindən yapışıb, zarafat eləyir: "Asta yeri, kəmər düşər belindən..." Ancaq xəyaldan tez ayıldı. Deyəsən, yanaqlarına qızartı da çökdü. Ziya müəllimin zəndlə ona baxdığını görüb, özünü yığışdırdı və fikrindən keçənləri birnəfəsə dedi:

– Ziya müəllim, elə bilməyin ki, bütün bu işlərin sizə dəxli yoxdur. Əslində, bizi siz şikəst etmisiniz. Siz vaxında bizə ağıllı yol göstərsəydiniz, bu gün bəlkə bu

ittihamlar da olmazdı. Axı, siz cəmiyyətin bayrağısınız. Cəmiyyətin işığı zəka sahibləridir. Biz nə görmüşük? Gözümüzü açanda elə bir perronda dayanmışdıq ki, oradan yalnız bir yol, bir qatar keçirdi...

Bu ara xanəndə zilə çəkdi. Elbəy, istər-istəməz, susdu.

*Əziz ömrü şirin tut ki, keçər, bərbad olar, qafil,*

*Qədr bil, vermə gəl əldən həyati-cavidan keçsin.*

*Canı can verib alsaydın bilərdin qədrini şəksiz,*

*Bilərmi oğru mal qədrin, ələ yaxşı-yaman keçsin.*

Elbəyin xanəndəni axıracan dinləməyə hövsələsi çatmadı. Tarzən mizrabı tellərə vuranda sözünə davam etdi:

– Tez-gec hamımız o qatara minməli, o məlum yol ilə getməliydik. Elə bilirdik ki, yeganə stansiyada və yeganə yolla gedən qatarda azadıq. İstəklərimiz də, bu istəklər uğrunda mübarizəmiz də, nail olduqlarımız da bizim qanuni haqqımızdır. Doğrudur, siz ailə, uşaq sahiblərisiniz. Əsl həqiqətdə isə, bir növ, heyvanların nəsil artımı ilə müqayisədə...

Ziya müəllimin, az qaldı, beyni çatlasın: insan öz faciəsini bu qədər aydın dərk edə-edə, bu qədər gözübağlı o yolu gedə-gedə... Yaxşı ki, xanəndə varmış.

*Nə qəmlərdən qəm əskilməz, nə bir nöqsan tapar şamdan,*

*Günün istər qara keçsin, ya istər şadiman keçsin.*

Ziya müəllim gülümsündü. Əlbəttə, bu gülümsünmək deyildi. Bu, elə bil, edamqabağı ölümə qarşı istehza idi. Bu hal, həm də qəzəbqarışıq hikkəyə - bir cavanın isterik vəziyyətinə aydınlıq gətirməli idi. Ehtiraslar, hisslər, emosiyalar coşanda sel kimi körpüləri yıxıb dağıdır. Elə bu anda Ziya müəllimin dostları, qohumları, qonşuları kino lenti kimi beynində sıralanmağa başladı. Bu gəmi – restorandakı adamları onlarla müqayisə etdi. Nədənsə, heç bir oxşarlıq tapmadı. Ancaq bu sıra ilə keçən adamların arasında professor Şəkərli ilişdi. Ziya müəllim, az qala, hər şeyi unudub Şəkərlinin həyətdə maşın yumağına baxırdı. İndi Ziya müəllimin xəyalında Elbəylə Şəkərli yerini dəyişmişdi. İndi Elbəy ağıllı məsləhəti

eşitməyən qonşu kimi suyu  həyətdə axıdırdı... Ziya müəllimin yadına düşdü ki, bir xəstə qonşusu var, heç kim xətrinə dəymir. O da həyətdə hər gün maşın yuyur – unudur ki, bu həyətdə günlərin bir günü özü də ziyan çəkəcək. Bilmir ki, (əlbəttə ki, bilir) özünün körpə uşaqları da (professor Şəkərli də gec evlənmişdi, uşaqları heç yeniyetmə də deyildi) bu lehmədən keçəcək, bu çirkabdan qalxan mikrobları udacaq – həmin mikroblar münbit yerdə vərəm çöplərinə dönüb bu körpələri başlayacaq içəridən yeməyə...

Bütün bunlar indi Elbəyə deməyin yeri idimi? Və yaxud  bir mənası var idimi? Axı, o vaxt Elbəy də Zaur da özlərini ən ağıllı ataların, ən ləyaqətli anaların övladları bilirdilər. Mənasız həyatlarını çox mənalı, zəngin bir həyat kimi qavrayırdılar.

Elə Murtuz kişi polkovnik mundirində özünü külli-ixtiyar sahibi bilmirdimi? Onun arvadı – Zaurun qayınanası Alya xanım hesab etmirdimi ki, adamlar gündə üç dəfə  onun hüzuruna gəlib salam verməlidilər? Professor Məcidin – Zaurun atasının mövqeyi bu deyildimi: kimi təhqir edirsən et, təki səni təhqir etməsinlər. Bu, cəmiyyətin ab-havası idi. Cəmiyyətin tapındığı düşüncə tərzi idi.Baxmayaraq ki, kitablarda, qəzetlərdə başqa cür yazılırdı. Həmin yazıların həyati reallıqla heç bir bağlılığı yox idi.

Yaxud Qədirin mühiti: həmin kolxoz sədrləri, hesabdarlar, müfəttişlər, mağaza müdirləri... nə düşünürdülər.

Ziya müəllim öz-özü ilə danışmış kimi daxili mükaliməni davam etdirdi: “Mən yaxşı başa düşürəm, Qədirin elədikləri bir etiraz idi. Özünə də, özgəsinə də, bütövlükdə cəmiyyətə də ziyan vuran etiraz kimə lazımdır?”

Axı, bu söhbətlərin yeri idimi? Bütün bunlar keçmişdə qalmamışdımı? İndi təkcə onlar yox, bu gəmidəkilərin elə hamısı qürbətdən gəlmirdimi? Əlbəttə, içərilərində Vətəndən yaxın günlərdə ayrılanlar da vardı, illər boyu arzuladığı Vətənə - həsrətinə qovuşmağa can atanlar da...

Bəs, onda, bu insanlar bir-birindən nə istəyirdi?

Deyəsən, xanəndə qalxdığı – arzuladığı zirvəyə çatmışdı. İndi həmin zirvədən enməyə, oxuduğu muğama ayaq verməyə başlamışdı.

*Nizami, varsa eşqin coş nəvayi ərğənun ilə,*

*Əlində saqinin, gəlsin, şərabi-ərğəvan keçsin.*

Birdən Ziya müəllimə elə gəldi ki, yer yarıldı. Bütün restorandakılar – gəmiqarışıq stul-stol da tərpənmədən yerin tərkinə getdilər. Və elə bu an hamı düçar olduğu fəlakəti dərk etdi.

Gəmi bələdçisi əl uzadıb Ziya müəllimi son anda tutmişdu. İndi həmin girdabdan çəkib çıxarmaq istəyirdi...

***

Ziya müəllim gözünü acdı. Bir-bir kayutları gəzib yatanları oyadan bələdçi limana çatdıqlarını xəbər verirdi.

...Dənizdən çıxan günəşin ilk şüaları dənizin mavi sularını qırmızı rəngə boyamışdı.

...Hələ dumanlı olsa da, uzaqda olsa da, sahil görünürdü. Adamların üzündə həyat sevinci, yeni günü yaşamaq həvəsi vardı.

...Ziya müəllimə elə gəldi ki, hələ heç kimin görünmədiyi o sahildə çoxlu adamlar var. Və o adamların arasında Güləzəri də, Fəhmini də, Farizi də, Laləzəri də apaydın görür.

2001